BAKI
İNSAN
HÜQUQLARI
KLUBU

Ünvan: Bakı şəhəri, H. Zərdabi pr-ti, ev 39, mən. 40
Telefon: +994 51 706 74 47
E-mail: humanrightsclub.az@gmail.com
Veb-səhifə: www.humanrightsclub.net

---

**Bakı İnsan Hüquqları Klubunun Bəyanatı: Tofiq Yaqubluya qarşı irəli sürülmüş ittiham sübuta yetirilməyib**

Bakı İnsan Hüquqları Klubu (BİHK) müxalifət təmsilçisi Tofiq Yaqublunun barəsində bu gün çıxarılmış hökmü qınayır və bu məsələ ilə bağlı öz narahatlığını ifadə edir.

Belə ki, Tofiq Yaqubluya qarşı irəli sürülmüş xuliqanlıq ittihamı məhkəmə istintaqı zamanı sübuta yetirilməmiş, ibtidai istintaqın sübutları ancaq zərərçəkmiş şəxslərin və şahidlərin ziddiyyətli ifadələrinə əsaslanmış, hadisənin hərtərəfli və obyektiv araşdırılması üçün zəruri olan videogörüntülər əldə edilməmiş, məhkəmə istintaqı zamanı müdafiə tərəfinin obyektiv nəticəyə gəlmək üçün qaldırdığı vəsatətlərin heç biri təmin olunmamışdır.

Tofiq Yaqublu 22 mart 2020-ci il tarixində baş vermiş hadisəyə görə saxlanılmış, ona qarşı Cinayət Məcəlləsinin 221.3-cü (silah və ya silah qismində istifadə olunan əşyalar tətbiq etməklə xuliqanlıq etmə) maddəsilə ittiham irəli sürülmüş və martın 23-də barəsində həbs qət-imkan tədbiri seçilmişdir. Bu gün isə Nizami Rayon Məhkəməsi Yaqublunun 4 il 3 ay müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum olunması barədə hökm çıxarmışdır. İttihama əsasən, Tofiq Yaqublu öz şəxsi maşını başqa maşını vurmaqla qəza törədib, həmin maşında olan Elxan və Cəvahir Cəbrayılovları (ər-arvad) döyüb, onlara vintaçanla xəsarət yetirib.

BİHK bəyan edir ki, bu cür məhkəmə qərarları Azərbaycanın üzərinə götürdüyü beynəlxalq öhdəliklərə zidd olduğundan hazırkı qərar ölkənin beynəlxalq imicinə, xüsusən də Avropa İnsan Hüquqları Konvensiyası kontekstində mənfi təsir göstərəcək. BİHK hesab edir ki, Tofiq Yaqublu mümkün olan ən qısa müddətdə azadlığa buraxılmalıdır. BİHK Azərbaycan hakimiyyətini bu istiqamətdə addımlar atmağa çağırır.

03 sentyabr 2020-ci il